Bəxtiyar Əmirov Lənkəran rayonunun Kosalar kəndində dünyaya göz açıb. Böyüyüb yaşa dolduğu ailədə şirin layla deyimlərindən savayı, bir səs də eşidib.



# Aləmin seyrinə gəl

Cabbarın, Seyidin, Xanın, Ağabalanın, Hacıbabanın yadigarı olan bir səs-muğam-mahnı avazını. Uşaqlıqdan Bəxtiyarın da sənətə, muğama həvəsi beləcə artdı. Orta məktəbdə oxuyarkən özfəaliyyət kollektivində muğam və xalq mahnılarını özünəməxsus tərzdə oxuyur, öz səsi, avazı ilə hamını heyran qoyurdu.

Bəxtiyarın ifa etdiyi "Segah", "Çahargah", "Dəşti", "Qarabağ şikəstəsi" və s. muğam, xalq mahnıları tamaşaçıların alqışlarını qazanıb.

İllər ötdükcə istedadlı xanəndənin sənətkarlığı daha da uzaqlara çatdı. O, hər bir muğam, təsnif və xalq mahnılarını özünəxas incəliklə, ustalıqla oxuyur, öz tamaşaçılarının qəlbinə yol tapır. İstər oxuduğu təsnif və xalq mahnılarında, istərsə də muğamlarda tamaşaçı zövqünü oxşamaq üçün öz üzərində ciddi çalışır. O, yaxşı başa düşür ki, təkcə səsin olması hələ hər şey demək deyil, bu səsin qorunması, düzgün istifadə də əsas şərtdir. Təsadüfi deyil ki, hər dəfə sənətsevərlərlə görüşəndə bu məsuliyyəti dərindən duyur, səsinin ahənginin gözəlliyinə, səs çalarlarından düzgün istifadəyə layiqincə yanaşır. Buna görə də rayonda elə bir el şənliyi, toy məclisi olmaz ki, Bəxtiyar ora dəvət almasın. İstedadlı xanəndə rayonda keçirilən müsabiqələrdə layiqli yer tutaraq dəfələrlə mükafatlandırılmış, tərifnamə və fəxri fərmanlara layiq görülmüşdür.

Bəxtiyar Əmirovun gözəl cəhətlərindən ən ümdəsi odur ki, o, daim öz üzərində ciddiliklə çalışır, bilmədiklərini öyrənir, mütaliə edir, biliyini zənginləşdirir. Klassik musiqiyə də qəlbən bağlanan Bəxtiyar Əmirov bu sənəti özünə əbədi yol yoldaşı seçib. Onun sənət dünyası çoxşaxəlidir. Təkcə muğam oxumaqla kifayətlənmir, həmçinin təsnif və xalq mahnılarını da xüsusi həvəslə oxuyur. Bəxtiyarın gözəl xüsusiyyətlərindən deyərdim ki, ən ümdəsi onun səhnə mədəniyyətinə, milli adət-ənənələrə düzgün əməl etmək bacarığıdır. Səhnədə öz xüsusi dəst-xətti olan bu xanəndəni camaata ən çox sevdirən də, bəlkə, bu xüsusiyyətidir.

**Xanəndənin oğlu Tələt də atasının yolunu seçmiş, Lənkərandakı C. Cabbarlı adına 1 saylı musiqi məktəbinin muğam şöbəsini bitirmişdir. Tələt də muğam aləmində öz dəstixətti ilə seçilir. Ömrünün müdrik çağını yaşayan atasının davamçısı kimi o da oxuduğu mahnıların, muğamların tamaşaçıların rəğbətini qazanması üçün öz üzərində ciddi çalışır.**

● **Azad ZÜLALOĞLU**
Lənkəran şəhəri

